**UOT: 821.09**

**Vüsalə AĞABƏYLİ**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
**vusale.agabeyli@gmail.com**

# GENDER SOSİALLAŞMASI GENDER İDENTİKLİYİNİN DƏRKOLUNMA PROSESİ KİMİ

**Açar sözlər:** gender, identiklik, sosiallaşma, ədəbiyyat, sosio-mədəni, rol
**Keywords:** gender, identity, socialization, literature, socio-cultural, role
**Ключевые слова:** гендер, идентичность, социализация, литература, социокультурный, роль

**Giriş.** XX əsrin 60-cı illərindən etibarən Qərb ölkələrinin sosial elmlərində (antropologiya, tarix, psixologiya, fəlsəfə və s.) işlədilən "gender" anlayışı qadın probleminin, ələlxüsus cəmiyyətdə qadın və kişi münasibətlərinin təhlili ilə əlaqələndirilir. Qadın və kişi münasibətlərinin adekvat təhlili üçün bioloji amillərin kifayət olması fikri də bu dövrə təsadüf edir [1, s.4].

XX əsrin 70-ci illərindən Qərb ədəbiyyatında, əsasən ingilisdilli ədəbiyyatda, sonralar isə müxtəlif ölkələrdə, hazırda Azərbaycanda da gender anlayışı haqqında müəyyən tədqiqat cəhdləri və mülahizələri ilə rastlaşırıq. Müasir dövrdə "Gender münasibətləri" dedikdə, şərti olaraq cinslərin ancaq sosial-mədəni sahədə olan qarşılıqlı münasibətləri nəzərdə tutulur. Hərçənd bu baxış da yekdilliklə qəbul edilməyib [2, s.8].

Bir sıra ədəbiyyatlarda və demək olar ki, əksər ölkələrdə "gender tədqiqatları" qadın məsələləri üzərində aparılan tədqiqatlar və ya feminist tədqiqatlar kimi qəbul edilir. Əslində isə gender tədqiqatları yalnız qadın problemlərini deyil, cinslərin mühüm xüsusiyyətlərini, cinslər arasındakı münasibətləri, cəmiyyətdə və siyasətdə cinslərin mövqeyini, qadın hərəkatlarının ictimailəşməsinin tarixi prosesini əks etdirir. Gender tədqiqatları dedikdə, ilkin olaraq cinslərin sosial-psixoloji və sosial-mədəni xüsusiyyətləri aspektindən araşdırılması nəzərdə tutulur. Təbii ki, qeyd olunanların fonunda ictimai və sosial mühit, iqtisadiyyat, siyasət də nəzərə alınır.

**Gender sosiomədəni fenomen kimi.** Genderin nəzəri anlamında əsas yer onun sosiomədəni kateqoriya kimi şərhinə məxsusdur. Genderə belə yanaşma qanunauyğun olaraq onun sosial təşkilli və mədəni təşkilli fenomen kimi tərifindəki fərqin dəqiqləşdirilməsinə ehtiyac ilə şərtləndirilir [12].

Deməli, gender bir-biri ilə sıx əlaqəli olan ikili təbiəti ilə xarakterikdir. Genderin sosial təbiəti dedikdə, onun sosial həyatının bir hissəsini təşkil edən sosial mühitindən asılı olaraq bölünmüş əmək funksiyası, rolları, tarixin dəyişməsi və texnologiyanın inkişafı ilə istehsalda rolu və ictimai əmək bölgüsü nəzərdə tutulur. Bu zaman, təbii ki, genderin sosial vəziyyətindən asılı olaraq onun formalaşması və inkişafında gender fərqlərinin rolu gözdən keçirilir.

Bununla da genderin müxtəlif sosial əlaqələr, qarşılıqlı təsir və qarşılıqlı münasibətlərdə aşkarlığının rəngarəngliyi onun sosiomədəni tədqiq orbitinə düşür. Tətbiqinin əsas nöqtəsi olaraq gender araşdırmasının bu konteksti gender sosial sisteminin gender stereotiplərinə, rollarına, təfəkkürünə və sairəyə təsirini nəzərdə

tutur. Başqa sözlə desək, diqqət mədəni qatın sosial formasiyanın maddi xüsusiyyətlərindən asılılığına yönəlir [12].

**Gender identikliyinin dərk olunmasında psixoanalitik yanaşmalar. Cinsi özünüdərk.** Genderin sosiallaşması ilk növbədə əmək bölgüsü ilə müəyyənləşən gender rollarının ayrılmasında və fərqləndirilməsində özünü göstərir. Cinslər aid olduğu cəmiyyətə uyğun sosial-mədəni obrazları özlərinə nümunə seçir, öncə təlqin və yamsılama prosesi keçir, daha sonra isə həmin obrazlara yiyələnirlər. Gender sosiallaşmasında mədəni, psixoloji amilləri bioloji amillərlə qarışdırmaq məsələnin əsas mahiyyətindən yayınmaq deməkdir. Gender rollarının müəyyənləşməsi bioloji amillərlə deyil, gender kimliyi ilə bağlıdır.

Qeyd etdiyimiz kimi, gender sosiallaşmasının ilkin mərhələsi ailənin təsiri ilə formalaşır. Burada gender simmetriyasının da təsiri əsas amil hesab olunur. Yəni ata və ana arasında rol bölgüsü balanslaşdırılmış şəkildə paylanarsa, övladın tərbiyəsi və formalaşması prosesində həm ata, həm də ana bərabər iştirak edərsə, həmin cinsin gender sosiallaşması normal olur. Lakin bəzən ata çox vaxt işdə olduğu üçün uşaqlara normal zaman ayıra bilmədiyindən gender asimmetriyası yaranır və bu da gender sosiallaşmasına mənfi təsir göstərir. Boşanmış ailələr, atasız böyüdülən uşaqlar bəzən cinsi identiklik problemi ilə üz-üzə qalır. Cinslərin genderoloji sosiallaşmasına zərər vuran amillərdən biri də son dövrlər bəzi Avropa ölkələrində eynicinslilərin nikahları və onların övladlığa uşaq götürməsinə icazə verilməsidir.

Ziqmund Freydə görə, cinsi kimliyin dərk edilməsi 3-4 yaşlarından sonra formalaşır. Psixoanalizin banisi olan Freydin cinslərin sosiallaşması ilə bağlı irəli sürdüyü bir fikir də odur ki, erkən yaşlarından qız uşağı ataya, oğlan uşağı isə anaya istək duyur. O bunu Edip kompleksi adlandırır. Edip kompleksi ideyasını yunan miflərindən olan Sofoklun "Edip" tragediyasından götürür. Edip kompleksinə daha yaxından nəzər salıb Freydin inkişaf nəzəriyyəsinə baxsaq, bu nəzəriyyənin psixikaya əsaslandığını görmək mümkündür. Freydə görə, nevrozların səbəbləri bəzən uşaqlarda baş verən cinsi xarakterli sarsıdıcı hadisələr, cinsi xəyalların formalaşması və valideynlərə olan münasibətlər olur. Bəzən oğlan uşaqları atanı özlərinə rəqib görərək ananı ondan qorumalı olduğunu düşünür. Freyd 3-5 yaş aralığındakı dövrü Edip mərhələsi adlandırır, sonra isə bu dövrün bitdiyini, bəzilərində isə yeniyetmə çağında yenidən qabardığını bildirir. Freyd nəzəriyyəsinə görə, obyektiv bioloji səbəbdən qadın günahkar və kişiyə qibtə edən passiv, qeyri-yaradıcı, assosial bir varlıq kimi qiymətləndirilir və onun köləliyinə müəyyən mənada haqq qazandırılır [13].

Yunq, Horney, Erikson Freydin bu nəzəriyyəsinə qarşı çıxaraq valideynlərdən birinə duyulan istəyin bioloji səbəblərdən qaynaqlanmadığını bildirirlər. Onların fikrincə, uşağın Edip mərhələsindəki (3-5 yaş) davranışlarında cinsi istəklər görünsə də, axtardığı cinsi doyumluluq yox, güvənlilikdir [11].

Lakan isə qeyd edir ki, cinslərin formalaşması dövründə Edip üçbucağı yaranır. Bu üçbucağı uğurla tamamlayan cinsdə gender sosiallaşması prosesi normal alınır. Lakana görə, uşağın ataya verdiyi anlam ananın atanı təqdim etdiyi qədərdir. Bioloji ata olub-olmamasından asılı olmayaraq, ananın ona verdiyi ata titulu uşaq üçün yetərli hesab olunur. Ananın ataya bəslədiyi duyğular olmazsa, uşaq obrazlı münasibətdə ilişib qalır və bu, gələcəkdə psixozun yaranmasına zəmin yaradır. Atanın adına bəslənən duyğular uşağı Edip üçbucağına salır [13].

Qeyd etdiyimiz kimi, gender identikliyinin üzə çıxmasında mühüm amil ailədir. Patriarxal cəmiyyətin daşıyıcıları olan valideynlər qızlarını daha çox himayə

altında saxlayır, oğlanlarına daha çox sərbəstlik verir, onları daha çox iqtisadi baxımdan asılı olmamaq istiqamətində tərbiyə edirlər. Adətən oğlan uşaqlarının üzərinə daha böyük yük qoyularaq, qızları daha itaətkar, utancaq, qorxaq olaraq yetişdirirlər.

**Gender stereotiplərinin formalaşması. Cəmiyyətdə rol bölgüləri.** Avropa Gender Bərabərliyi İnstitutunun ekspertləri tərəfindən işlənilmiş "Gender in Culture" ("Mədəniyyətdə gender") adlı araşdırmalarında, xüsusilə də Böyük Britaniya statistikasına nəzərən qeyd olunur ki, qadınların əksəriyyəti humanitar ixtisaslar üzrə təhsil alır, mədəni və yaradıcı sahələrdə fəaliyyət göstərirlər. Böyük Britaniyada moda dizaynerliyi sektoru üzrə fəaliyyət göstərənlərin böyük əksəriyyəti qadındır. Lakin söhbət rəhbər vəzifələrdə təmsil olunma, qərarverici qüvvə və hakim mövqedən gedirsə, bu zaman kişilərin az faizlə deyil, çox yüksək faizlə təmsil olunduğunu müşahidə etmək mümkündür. Müxtəlif dünya ölkələri üzrə statistik araşdırma aparan ekspertlər qeyd edir ki, Avropada jurnalist qadınların 40 faizi xəbər sektorunda təmsil olunursa, bunların cəmi 3 faizi qərarverici mövqelərdə təmsil olunur. O cümlədən, idarəetmədə və rəhbər vəzifələrdə qadının roluna nəzər saldıqda, müşahidə edirik ki, Fransada 17, Böyük Britaniyada 37, Almaniyada 20, İspaniyada 33 faiz və sairədir. Fərqlərin necə də böyük olduğu aydın görünür [5, s.3].

Böyük Britaniyada Qadın və Demokratiya Mərkəzi də bənzər statistika təqdim edir: milli və regional muzeylərin direktoru vəzifəsində fəaliyyət göstərənlərin 28 faizi qadınlardırsa, 72 faizi kişilərdir. Həmin sahələrin idarə heyətinin tərkibindən söhbət gedərsə, həyəcan təbili çalan faiz ortaya çıxır, belə ki, idarə heyətini 90,7 faizini kişilər təmsil edir. Bənzər fərqi teatr sahəsində də müşahidə etmək mümkündür, cəmi 31,8 faiz qadın idarə heyətində çalışır [8].

Dünya İqtisadi Forumunun 2008-ci il üçün illik hesabatında qadın və kişilərin roluna görə ilk yeri Norveç, Finlandiya, İsveç, İslandiya tutur [9].

Azərbaycanda qadın və kişi bərabərliyi Azərbaycan Respublikasının ən ali orqanının Konstitusiyasında dəstəklənir. Konstitusiyanın 25-ci maddəsində qeyd olunur ki, kişi və qadının eyni hüquq və azadlıqları vardır. Bundan başqa, Konstitusiyanın 55-ci maddəsi bütün vətəndaşlara, qadınlara seçmək, seçilmək və referendumda iştirak hüququ verir.

Bundan əlavə, qadınların dövlət orqanlarında fəal iştirakını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti 2000-ci il martın 6-da "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman verib. Fərmanda bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbər vəzifələrdə kişilərlə bərabər təmsil olunması, Statistika Komitəsinə qadınlar haqqında geniş məlumatların hazırlanması və yayılması, Nazirlər Kabinetinə ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə gender siyasəti tələblərini əsas tutaraq qadınlar üçün kişilərlə bərabər imkanların yaradılması, qadınların hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə qanunlarda dəyişikliklər və əlavələr edilməsi üçün təkliflər irəli sürülməsi kimi tapşırıqlar verilib. Bu fərmandan sonra nazirlik, komitə və icra hakimiyyəti başçılarına qadınların rəhbər vəzifələrə irəli çəkilməsi tapşırılıb [9].

Lakin Dövlət İmtahan Mərkəzinin sədri Məleykə Abbaszadənin "Azərbaycanda İnsan Kapitalı üzrə Forum"da çıxışına əsasən, Azərbaycanda təhsilalanlar arasında qadın və kişi təxminən eyni faiz təşkil edir, hətta bəzi illərdə qadınlar üstələsə də, dövlət qulluğunda inzibati vəzifələrdə 30-40 faiz qadınlardır, rəhbər vəzifələrdə isə heç 10 faiz də qadın yoxdur [10].

Bu baxımdan iqtisadçı ekspert Rövşən Ağayevin də Azərbaycanda gender statistikası ilə bağlı araşdırmalarına nəzər salmaq yerinə düşər (2019). O, qeyd edir ki, ölkədə iqtisadi cəhətdən qeyri-fəal olan, heç bir rəsmi fəaliyyətə cəlb edilməyən xanımların təxminən 45 faizi “evdar” statusu olanlardır. İqtisadiyyat üzrə qadınların rəsmi məvacibləri kişilərin maaşlarının təxminən yarısına bərabərdir.

Bütün məşğul qadınlarımızın14, kişilərin 20 faizi ali təhsillidir.

Qadın işsizlərin sayı kişilərə nisbətən 40 faiz çoxdur.

Bütün iqtisadi fəal qadınların cəmi 25 faizi rəsmi əmək müqaviləsi əsasında çalışır. Yəni ən yaxşı halda hər 100 qadından 25 nəfəri ona pensiya hüququ, xəstəlik və analıqla bağlı, istirahət üçün məzuniyyət hüququ qazandıracaq sosial sığorta sistemi ilə əhatələnib.

Rəsmi sahibkarlıq subyektlərinin ən yaxşı halda 20 faizi qadınlardır [14].

Qadının karyeradakı uğuru və ya uğursuzluğunu təhlil edən Marqaret Henninq və Anne Jardim “The Managerial Woman” (“İdarəedici qadın”) adlı kitabda qadın və kişi rollarını müqayisə edirlər. Onlar idarəetmədə qadının uğursuzluğunun və ya kişilərlə müqayisədə ləng gedən uğur yolunun ilk səbəbini qadının sosial statusunda axtarırlar. Çünki həyatının bir dönəmində qadın ailə qurur, uşaq dünyaya gətirirsə, onun ailə qayğıları çox vaxt karyerasının önünə keçir. Ən az kişilər qədər, bəlkə də bəzən onlardan daha da artıq təhsilli və bacarıqlı olan qadın karyerasına, inkişafına müəyyən müddətlik ya fasilə verir, ya tamamilə dayandırır, ən yaxşı halda isə ailə qayğılarından bir az zaman ayırır. Bu müddət ərzində isə kişi birxətli inkişaf yolu üzrə davam edir. Qadının karyera üzrə inkişaf xəttini araşdırmaq məqsədilə Henninq və Jardim Britaniyada qadınların rəhbər vəzifələrə seçilməsi üzrə aparılan sorğunu və rəhbər vəzifələrə seçilmək üçün qadınlarla təşkil olunan müsahibəni təhlil ediblər. Məlum olur ki, rəhbər vəzifələrə seçilmək üçün qadınlara, kişilərdən fərqli olaraq, iki sual da verilir: 1. Övladınız varmı, varsa neçə yaşdadır? 2. Yaxın zamanlarda uşaq dünyaya gətirmək kimi planınız varmı? Bu sualların niyə verildiyini aydınlaşdırmaq üçün müraciət etdikdə, aydın olur ki, uşaqların istirahəti, xəstələnməsi, qayğısı üçün analar daha çox vaxt ayırdığı və bu səbəbdən emosionallığı artdığı üçün iş mühitində bəzən problemlər, işdən qalma və ya gecikmə halları yaşanır. Eyni suallar isə kişilərə verilmir. Kişilərə bəlkə belə bir sual verilsə, ya da bu cür öhdəlikləri olsa, bəziləri, yəqin ki, evlilikdən və uşaq dünyaya gətirilməsindən imtina da edər. Təbii ki, bu cür müsabiqələr zamanı cinsi ayrı-seçkiliyə yol verməmək əsas meyardır, yüksək təhsilli, qabiliyyəti daha üstün olan və müvafiq vəzifəyə daha yararlı mütəxəssisi seçmək mühüm amildir. Lakin belə məqamda karyera pillələrinin müəyyən dönəmlərində özünütəkmilləşdirmədən məcburi şərtlər altında zaman-zaman geri qalan, üç il analıq məzuniyyətində olan qadın necə onunla eyni potensiallı, lakin daim özünü təkmilləşdirməklə məşğul olan kişidən üstün görünə bilər ki? Bu baxımdan da cinsi fərqinə görə deyil, müvafiq vəzifəyə yararlılığına görə kişi mütəxəssis çox vaxt qadının önünə keçir [6].

Liderlik, gender və inkişaf məsələləri üzrə ekspert, “Hamımız üçün yaxşı dünya yaradan Qadın İkonası” mükafatına layiq görülən ilk azərbaycanlı Şəmsiyyə Mustafayeva qeyd edir ki, gender məsələsi güc-nüfuz məsələsidir. BMT-nin Baş katibi Antonio Quttereşin fikirlərinə istinad edən Ş.Mustafayeva bildirir ki, dünya kişilər tərəfindən kişilər üçün yaradılıb, sosial-iqtisadi-siyasi olaraq formalaşan struktur kişilər üçün nəzərdə tutulub, qadınlar sanki sonradan əlavə olunub. Buna isə ən sadə bir misal gətirir ki, maşınların qoruyucu kəmərləri belə orta-statistik kişilər üçün hesablanaraq hazırlanır, ona görə də qəza baş verən zaman öndə əyləşən qadın,

kəmərin bağlı olmasından asılı olmayaraq, eyni tipli qəzalarda kişilərdən daha çox xəsarət alır. Bununla yanaşı, dünyada bir sıra texnoloji vasitələr məhz kişi faktorunu nəzərə alaraq qurulub.

Eyni işə görə də qadınların kişilərdən daha az maaş aldığını vurğulayan Şəmsiyyə Mustafayeva bildirir ki, qadınlar il ərzində 140 milyard saat ödənişsiz işləyir – ev işləri, uşağa baxmaq, həyətdə işləmək və s. Lakin bunlar ümumdaxili məhsulda heç cür öz əksini tapmır. Bütün bunların müqabilində isə istər ölkəmizdə, istərsə də dünyada idarəetmə heyətinin ən üst təbəqələrinə baxsaq, kişi mütəxəssislərin yüksək faizlə üstünlük təşkil edəcəyini görərik. Sual oluna bilər ki, bunun nəyi pisdir və ya burada nə var ki? Bunun o tərəfi pisdir ki, qərarverici məqamlarda qadın baxış bucağı və qadın yanaşması nəzərə alınmır. Kişilər qadınların da əvəzinə onların həyatları ilə bağlı önəmli qərarları qəbul edirlər. Həm ailədə, həm cəmiyyətdə qərar verən kişilər olduğu üçün qadınların öz həyatları, öz bədənləri (reproduktiv sağlamlıqla da bağlı qərarları kişilər verir), nəyi yeyib-yeməyəcəyi (biznes də kişilərin əlindədir), səsinin nə dərəcədə eşidilib-eşidilməyəcəyi və s. qərarların hamısını kişilər verir. Çünki kişilər çox vaxt qadını özlərindən asılı, ələbaxan kimi görməyi normal hesab edirlər. Qadına daha artıq təhsil imkanları yaradılsa, fəaliyyət sferaları genişlənsə, qərarverici strukturlarda mövqeyi artırılsa, onda kişi gücü ilə qadın gücü, nüfuzu eyniləşər, bəlkə də qadınlar daha da üstün olarlar. Bu baxımdan da ənənəvi patriarxal dəyərlərə söykənən kişilər öz əllərində olan hakim mövqeyi, gücü, nüfuzu qadına ötürmək və ya onunla bölüşmək arzusunda deyillər [15].

**Gender sosiallaşmasının bədii ədəbiyyatda təzahürü.** Marqaret Atvud "The Testaments" əsərində göstərir ki, qadınlara uşaq yaşlarından kişilərə tabe olunması aşılanır. Qızlar hətta geyim tərzlərini belə kişilərə görə seçməlidirlər, ətəkləri ayaqlarını örtəcək qədər uzun olmalıdır ki, onların ayaqları kişilərdə şəhvət hissi oyatmasın. Əgər qadının qolu, ya ayağı kişilərdə şəhvət hissi oyadarsa, kişi qadını zorlayarsa, bunun günahkarı da qadındır. Hətta təlim keçəndə belə qadın beyninin daha kiçik olduğu, kişilər kimi düşünə bilməməsi, kişilərin ekstra gücü olduğu, qadınların kişilər üçün yaradıldığı kiçik yaşlarından qızların, bunların əksi isə oğlanların beyninə yeridilərək onların əlinə qeyri-ixtiyari hakimiyyət həvalə edilir: "Only boys could taste that freedom, only they could swoop and soar; only they could be airborne" [4, s.23].

Əslində, psixoloqların araşdırmaları və pedaqoqların fikirləri bunu deməyə imkan verir ki, bütün qızlar inkişaf baxımından kiçik yaşlarda oğlan uşaqlarına nisbətən fərqlənir. Bütün dünyada qızlar 4-5-ci siniflərə qədər oğlanlardan həm fiziki, həm də intellektual baxımdan üstün olurlar. Lakin sonrakı dövrün yanlış gender sosiallaşması, tərbiyə və təhsil, müəllimlərin yanaşması belə onların liderlik sahəsində oğlanlardan geri qalmasını təmin edir. Məktəb mühitində yaranan gender asimmetriyası da yanlış gender sosiallaşmasına yol açır. İbtidai sinif müəllimlərinin 95 faizindən çoxu qadın müəllimlərdir, bunun özü də gender sosiallaşmasında mənfi rol oynayır, oğlanlarda femininliyi fərqli istiqamətdə qavramağa, qadının əlaqədar olmadığı hər bir sahənin məhz kişi üçün olduğunu təsəvvür etməyə və yanlış maskulin başlanğıca səbəb olur. Penisinin olması, valideynlərinin, müəllimlərinin onları daha dözümlü, iradəli, güclü başlanğıc kimi təqdim etməsi onlarda fərqli bir eqonun ortaya çıxmasına səbəb olur. Halbuki heç də bütün oğlanlar güclü, iradəli olmur, bəzən utancaq, bəzən fikirlərini tam olaraq izah edə bilməyən olur. Bu hallar

cinslərin psixologiyasında yanlış təsəvvürlərə və cəmiyyətdə qadına qarşı mənfi hissləri formalaşdıran mexanizmə çevrilir [7].

Marqaret Atvudun "The Handmaid's Tale" əsərində də eyni məsələ diqqəti cəlb edir. Kişilər yeni qaydalar və qanunlar əsasında tam fərqli bir cəmiyyət qurur, idarəediciləri də, qərarvericiləri də məhz kişilərdir. Qadının isə bu cəmiyyətdə rolu kişiyə tabe olmaq, qayda-qanunları pozmamaq, ailəni qorumaq, uşaq dünyaya gətirmək, mütləq şəkildə uşağı ana südü ilə təmin edə bilmək, abort hallarına qəti şəkildə yol verməmək, sevgi və ehtirasdan kəskin olaraq uzaq durmaq, qadın gözəlliyini önəmsəməməkdən ibarətdir. Qadının əsas funksiyası uşaq dünyaya gətirməkdir, uşaq dünyaya gətirən qadın daha "Qeyri-qadın və ya məchul qadın, naməlum qadın" adlandırılmır, koloniyalara sürgün olunmur. Lakin uşaq arzusunda növbə gözləyən başqa kişiyə transfer olunur: "She'll be allowed to nurse the baby, for a few month, they believe in mother's milk. After that, she'll be transferred, to see if she can do it again, with someone who needs a turn. But she'll never be sent to the Colonies, she'll never be declared Unwoman" [3, s.133]. Əgər hər hansı qadın bu cəmiyyətin qaydalarından birini pozarsa, nəticəsi ağır işgəncələr və ölümlə cəzalandırma olur. Kişilərin qurduğu bu distopik cəmiyyətdə qadın faktoru nəzərə alınmır. Lakin kişilər öz yaratdıqları qayda-qanunları gizli şəkildə bəzən elə özləri poza bilir, fərqli qadınlarla ehtiraslı görüşlər təşkil edə bilirlər. Qadınları isə dini xurafatın və özlərinin yaratdığı qayda-qanunların təzyiqi altında itaətdə saxlamaqda davam edirlər.

**Nəticə.** Gender kimliyinin müəyyən olunmasında, cinsi özünüdərk prosesində, psixoseksual xarakterin formalaşmasında və cəmiyyətdə davranış meyarları və rol bölgüsünün formalaşmasında yalnız cinslər arasındakı bioloji fərqlər yetərli olsaydı, onda cəmiyyətdə transseksuallara, tranvestislərə rast gəlinməzdi və iki cins – qadın və kişi cinsləri arasında konkret rol bölgüsü daşıyan sədd olardı. Beləliklə, şəxsiyyətin psixoloji strukturu və gender kimliyi ilk növbədə ailə, daha sonra təhsil və son dövrlər media vasitəsilə formalaşır.

Gender stereotiplərinin formalaşmasında sosial-iqtisadi amillər böyük rol oynasa da, mədəni amillər daha çox təsir gücünə malikdir. Gender sosiallaşmasını cinsin aid olduğu cəmiyyətdə mövcud olan mədəniyyət formalaşdırır. Çünki nəsillər fərqli mədəniyyətlər və mədəni dəyişikliklər çərçivəsində sosiallaşırlar.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. İbrahimbəyova, R. Gender – günün tələbidir // "Gender; qadın problemlərinin yeni mərhələsi", Bakı, 1998, 149 s.
2. Quluzadə, Z. Keçid dövründə respublikada gender və qadın problemləri // "Gender: qadın probleminin yeni mərhələsi", Bakı, 1998, 149 s.
3. Atwood. M. The Handmaid's tale. London: Vintage, 1996, 322 pp.
4. Atwood, M. The Testaments. London: Vintage, 2019, 396 pp.
5. Gender in Culture, European Institute for Gender Equality, Luxembourg: Publications Office of the European Union, 2016, 26 pp.
6. Henning, M., Jardim, A. The Managerial Woman. Garden City, N.Y.: Anchor Press/ Doubleday, 1977. 221 pp.

7. Блок, Дж. Влияние дифференцированной социализации на развитие личности мужчин и женщин // Пайнс, Э., Маслач, К. Практикум по социальной психологии. СПб. 2000, 168-181с.
8. Centre for Women and Democracy, Sex and power 2013: who runs Britain? 2013, http://www.hansardsociety.org.uk/sex-and-power-2013-who-runs-britain-counting-women-inreport/
9. https://az.trend.az/azerbaijan/politics/1436297.html
10. https://banker.az/az%C9%99rbaycanda-r%C9%99hb%C9%99r-v%C9%99zif%C9%99l%C9%99rd%C9%99-calisan-qadinlarin-sayi-10-d%C9%99n-d%C9%99-azdir-s%C9%99dr/
11. www.gumer.info/bibliotek_Buks/Sociolog/gidd
12. https://kayzen.az/blog/kulturologiya/9178/gender-v%C9%99m%C9%99d%C9%99niyy%C9%99t.html
13. https://kayzen.az/blog/psixologiya/22289/freydd%C9%99n-lacana-kimi-edip-kompleksi.html
14. https://qafqazinfo.az/news/detail/azerbaycandaki-qadinlarla-bagli-maraqli-statistika-246018
15. https://www.youtube.com/watch?v=PgVrR95imf8

***Vusala Aghabaylı***

**Gender socialization as the process of perception of gender identity**

***S u m m a r y***

The article deals with the main role of gender socialization in the formation of gender identity. In some literatures, “the gender research” only refers to feminist researches on women's issues, but in fact, gender researches primarily refer to the study of the socio-psychological and socio-cultural characteristics of the genders. The definition of gender roles is not only based on biological factors, but mainly on gender identity.

The family is the most important factor in the emergence of gender identity. Parents, who are the followers of a patriarchal society, keep their daughters under more protection, in comparison, give their sons more freedom, and raise them to be more economically independent. One of the factors making bad impact on the gender socialization of the sexes is the recent practice of same-sex marriage and adoption in some European countries. Education and differences in gender role division also play a key role in the formation of gender identity. While most women study in the humanities, men usually focus on managemental fields of education. We generally observe a high percentage of men in leadership, decision-making and ruling positions.

If only biological differences between the sexes were sufficient to determine gender identity, then there would be no transgender people, transvestites in society, and there would be a barrier between the two sexes, the female and the male. Thus, the psychological structure of the personality and gender identity is formed first through the family, then through education and, more recently, through the media.

***Вусала Агабейли***

## Гендерная социализация как процесс восприятия гендерной идентичности

***Р е з ю м е***

В статье рассматривается главная роль гендерной социализации в формировании гендерной идентичности. В некоторых литературных источниках «гендерные исследования» относятся только к феминистским исследованиям женских проблем, но на самом деле гендерные исследования, в первую очередь, относятся к изучению социально-психологических и социально-культурных характеристик полов. Определение гендерных ролей основывается не только на биологических факторах, но в основном на гендерной идентичности.

Семья – важнейший фактор возникновения гендерной идентичности. Родители, которые являются последователями патриархального общества, по сравнению с ними держат своих дочерей под большей защитой, дают своим сыновьям больше свободы и воспитывают их, чтобы они были более экономически независимыми. Одним из факторов, оказывающих негативное влияние на гендерную социализацию полов, является недавняя практика однополых браков и усыновления в некоторых европейских странах.

Образование и различия в разделении гендерных ролей также играют ключевую роль в формировании гендерной идентичности. В то время как большинство женщин изучают гуманитарные науки, мужчины обычно сосредотачиваются на управленческих областях образования. Как правило, мы наблюдаем высокий процент мужчин на руководящих должностях.

Если бы для определения гендерной идентичности были достаточны только биологические различия между полами, то в обществе не было бы трансгендеров, трансвеститов и существовал бы барьер между двумя полами, женским и мужским. Таким образом, психологическая структура личности и гендерная идентичность формируются сначала через семью, а затем через образование и, в последнее время, через средства массовой информации.